# Azərbaycan İƏT-in İstanbulda keçirilən nazirlər konfransının sessiyasında təmsil olunub



**Fevralın 24-də İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İnformasiya Nazirləri Konfransının növbədənkənar sessiyası keçirilib.**

Bu barədə AZƏRTAC-a Medianın İnkişafı Agentliyindən məlumat verilib.

Bildirilib ki, sessiyada Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov iştirak edib.

Tədbirdə münaqişə zonalarında jurnalistlərin fəaliyyəti, dezinformasiyaya qarşı kollektiv reaksiyanın əhəmiyyəti istiqamətində müzakirələr aparılıb.

-

Azərbaycan.- 2024.- 25 fevral, № 43.- S.2.